Çoxdan eşitdiyim bir söz var: insanlar ölür, amma dastanlar qalır. Məncə, o insanların dastanı yaşayır ki, onlar dastanlara sığmayan igidlik, qəhrəmanlıq göstəriblər. Bu halda qəhrəmanların dastanı əbədi yaşayır. Azərbaycan tarixində Qaçaq hərəkatının ayrıca bir yeri var.

# Qaçaq Süleymanın Səttarxan hərəkatında böyük yeri var...

## Fərman Qarabağlı: "Xalq qəhrəmanı Qaçaq Süleyman Səttarxan hərəkatına dəstək verib"



Azərbaycan xalqının müstəmləkə və feodal zülmünə qarşı milli-azadlıq hərəkatının əsas formalarından biri kimi meydana çıxan Qaçaq hərəkatı böyük bir tarix yazıb. Çar zülmünə, eləcə də bəzi yerli ağaların, bəylərin özbaşnalığına etiraz edərək onlara qarşı mübarizə aparan və dağlara çəkilən, xalqın ümid yeri olan qaçaqlarımızın adlarını bu xalq yaddaşından heç zaman çıxarmır. Adı yaddaşlarda yaşayan belə igidlərdən biri də xalq qəhrəmanı Qaçaq Süleymandır.

Əslən Füzuli rayonunun Arayatılı kəndindən olan, uzun illər ticarətlə məşğul olan, hazırda Bakıda yaşayan "Bakı-Xəbər"in təəssübkeş oxucusu və təbliğatçısı, redaksiyamızın yaxın dostu Fərman Qarabağlı (Süleymanov) Qaçaq Süleymanın qəhrəmanlıq dastanından danışdı. "Xalq Qəhrəmanı Qaçaq Süleyman barədə danışmaq, tarixdə öz izini qoyan belə bir şəxsiyyəti xatırlamaq yerinə düşərdi. Əslən Qarabağın Qacar Əbdürrəhmanlı (Sovet dövründə Aşağı Əbdürrəhmanlı adlandırılıb-F.Q) kəndindən olan, sonradan Arayatılı kəndində yaşayan Qurban Süleyman oğlu danışırdı ki, Azərbayanda igid adamlar çox olub, onlardan biri də Qaçaq Süleyman idi. Bəzən deyirlər ki, filan qaçaq başqa ölkələrdən Azərbaycana mal gətirən tacirlərin mallarını əlindən alıb camaata payladı. Bu, xalq qəhrəmanının adına yaraşan iş deyil. Heç bir xalq qəhrəmanı tacirlər, yaxud varlı adamların əlindən malı alıb camaata paylamayıb. Qaçaq Süleymanın bəylərlə, imkanlı adamlarla, tacirlərlə münasibəti yaxşı olub. Onun mübarizəsi Çar məmurlarına və ermənilərə qarşı idi. Hər hansı bir çar məmuru bəylərə, tacirlərə qarşı olanda o zaman Qaçaq Süleyman onları müdafiə edirdi. Bilmirəm, şallaq, yoxsa qırmanc deyim, onun qulpunun arxasında Qaçaq Süleymanın möhürü olub. Hansısa bir kasıb adam gəlib deyirdi ki, övladıma toy edirəm, mənə kömək et. Qaçaq Süleyman kağız yazıb möhrünü vurub həmin adama verirdi ki, bu kağızı Bayrambəyli (indiki Yuxarı Əbdürrəhmanlı) Allahyar bəyə ver. Kağıza yazırdı ki, bu adama beş erkək ver, oğlunun toyudur, həmin bəy də onun dediyini yerinə yetirirdi.

Qaçaq Süleyman eyni zamanda çox güclü nişançı olub. Arazın o biri tayından Qarabağ mahalının xanı ona qonaq gəlib, Əhmədalılar kəndinin aşağısında, Arazın qırağında çəmənlikdə xörək qazanları düzülür, qız-gəlinlər süfrə açıblar, yeməkdən sonra istirahət məqsədilə adət imiş, nişan qoyub güllə atırlarmış. Xan atının qaçarağında nişan qoyduğu yumurtanı vurur, Süleyman deyir ki, xan, atının qaçarağı xoşuma gəldi, onu bir də çap baxmaq istəyirəm. Xan atına minib çapır, Qaçaq uca səslə qışqırır, xan, tavlamıxı ortadan gözlə, o, çiynindən beşatlanı aşırıb atır, xan qayıdıb gəlir və baxıb görür ki, güllə düz tavlamıxın (tavlanı atın ayağına yapışdırıb bağlayarmışlar. Yəni bir yana gedəndə mıxı yerə vurub atı ona bağlayarmışlar-F.Q) ortasından keçib. Xan əlini Qaçaq Süleymanın çiyninə qoyub "Süleyman, çox sağ ol, Qarabağda da igidlər var" deyir".

Bir neçə il əvvəl keçmiş ANS kanalında tarix elmləri doktoru Cavanşir Hüseynov Qaçaq Süleyman haqqında bunları deyib: "Səttarxan hərəkatına kömək üçün Əhmədalılar kəndindən Qaçaq Süleyman, Şuşadan Qaçaq Cavad, Lənkərandan Qaçaq Hacıağa başının dəstəsi ilə Səttarxana köməyə gediblər. Xalq qəhrəmanı Qaçaq Süleyman Səttarxan hərəkətina dəstək verib.

1896-cı ildə Kirs dağında Çar qoşunlarına qarşı döyüş olub və Əhmədalılardan (rayondan) Qaçaq Süleyman 200 atlı ilə köməyə gedib. Tarixçi Cavanşir Hüseynova öz minnətdarlığımı bildirirəm ki, Qaçaq Süleyman haqqında belə vacib məsələləri vurğulayıb. Heyf, nömrəsini bilmirəm, yoxsa zəng edib təşəkkür edərdim.

Qaryagin qəzasının Çar hökuməti tərəfindən təyin edilən başçısı Qaçaq Süleymana xəbər göndərir ki, sənə qonaq gəlirəm. 1916-cı ildə Süleyman Arazın qırağında məclis düzəldib qonaqları gözləyir. Dəstə üzvlərindən qaçaq Xanalı Süleymana deyib ki, gəl, Qaraqoçu kəsək, bunlar səni öldürməyə gəlirlər. Süleyman deyir ki, qonaqları yaxşı qarşılamaq lazımdır. Bunlar yeyib-içəndən sonra qəza rəisi deyir ki, Süleyman, gəl bir az gəzək. Arazın qırağına gəlirlər, böyük yarğanın kənarında qəza rəisi qəsdən Süleymanı itələyib yarğana yıxır. Aşağıda isə Çar əsgərləri əllərində silah gözləyirlərmiş. Süleyman yıxılan anda silahı çəkib qəza rəsini öldürür. Çar əsgərləri isə qaçaq Süleymanı güllələyirlər. Süleymanın dəstəsinin üszləri Çar əsgərləri ilə döyüşə girib hamısını qırırlar və Süleymanın nəşini götürürlər. Qaçaq Xanalı deyir ki, ölsək də onun meyitini Çar əsgərlərinə verməyəcəyik. Süleymanın nəşini aparıb Arazın o tayında, İranın Şah Qasım kəndində dəfn edirlər.

Rəhmətlik Süleyman oğlu Qurban danışırdı ki, mən Qacar Əbdürrəhmanlıdan Arayatılı kəndinə gələndə daşdan iki mərtəbəli ev tikdirmək istədim. O vaxt da ev tikdirəndə bünövrə töküləndə hamı gedib kömək edirdi. Süleyman oğlu Qurban Arayatılı kənd orta məktəbinin direktorunun yanına gedir və ondan icazə alıb oğlunu evə gətirmək istəyir ki, o, gəlib işləyənlərə çay versin. Direktorun otağına girəndə kövrəlir, gözləri dolur. Məktəb direktoru Tarxan müəllim onun xahişini yerinə yetirib oğluna icazə verir. Tarxan müəllim Qurban kişidən soruşur ki, siz məni görəndə niyə kövrəldiniz? Qurban kişi deyir ki, heç…məktəb direktoru çox üz vurduqdan sonra o deyir ki, sizi bir adama oxşatdım. "Sən Allah, de görüm kimə oxşatdın?" deyə soruşur. Qurban kişi "Qaçaq Süleymana oxşatdım" cavabını verir. Tarxan müəllim ayağa durur, Qurban kişini qucaqlayıb ağlayır və deyir ki, mən onun qardaşı oğluyam. Tarxan müəllim məktəbin bütün yuxarı sinif şagirdlərini köməyə göndərir və özü də gəlib qapıda oturub çay içə-içə köməyə gələnlərə nəzarət edir".

F.Qarabağlının sözlərinə görə, Qurban Süleyman oğlu deyirmiş ki, Qazax tərəfdə Qaçaq Kərəm olub, o da igid idi və xalq qəhrəmanı olaraq tariximizdə qalıb. Əslən Qaryaginin (Füzuli rayonu) Horadiz kəndindən olan Seyid Şuşinki çıxıb İmam yalında oxuyanda Qaçaq Süleyman Əhmədalılar kəndindən onun səsini eşib gəlib onu oxudarmış. Bu barədə məlumatı Firudin Şuşinskinin "Azərbaycan xalq musiqiçiləri" kitabından götürdüyünü deyən F.Qarabağlı "Allah o mərd kişilərə, igid oğullara, şəhidlərimizə rəhmət eləsin. Qarabağ müharibəsində Azərbaycanın bütün bölgələrindən igid oğlanlar qəhrəmanlıq dastanları yaratdılar. O cümlədən də Biləsuvar rayonundan çox igid oğlanlar qəhrəmanlıq göstərdilər. Biləsuvar rayonundan olan Samir adlı gənc müğənni Qaçaq Süleymanın yerlisi Ülviyyə Namazovaya dedi ki, biləsuvarlılar qorxmazdı, biz qorxmazıq. Düzdür, Ülviyyə Namazova onun cavabını verdi. Amma o cavan oğlan bilsin ki, bu sözləri deməklə Qaçaq Süleymanın ruhunu narahat etdi. Allah Milli Qəhrəman Mübariz İbrahimova da, başqa igid oğullarımıza rəhmət eləsin. Bu oğullar müzəffər Ali Baş Komandanın rəhbərliyi altında birləşib düşmənə layiqli cavab verdi"-deyə bildirdi.

F.Qarabağlı söhbətimiz zamanı çox gərəkli bir təklif də irəli sürdü: "Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Qaçaq Süleyman haqqında film çəkildi. Qaçaq Süleymanın rolunu xalq artisti, böyük sənətkar Əli Nur oynayıb. Süleyman oğlu Qurban kişinin ən böyük arzusu Əhmədalılar kəndində, yaxud Füzuli şəhərində Qaçaq Süleymanın atın üstündə heykəlinin qoyulması idi.

Biz də arzu edərdik ki, Qaçaq Süleymanın abidəsi qoyulsun, bu, qəhrəmanlıq irsimizə böyük töhfə olardı. İnanıram ki, müzəffər Ali Baş Komandan gələcəkdə bizim bu arzumuzu da yerinə yetirəcək. Çünki yeni nəsil Qaçaq Süleyman kimi xalq qəhrəmanlarını tanımalıdır"-deyə F.Qarabağlı bildirdi.

*İradə SARIYEVA*